# Şəhid televiziya işçisi Davud Qurbanov...

**Fiziki ömrü yarımçıq qırılsa da, mənəvi ömrü əsrlər boyu yaşayacaq, onu sabahkı nəsillər də tanıyacaq, adı ilə fəxr edəcək. Bu, ATV-nin əməkdaşı - montajçı şəhid Davud Qurbanovdur. O da bütün şəhidlərimiz kimi, gənc yaşında canını vətənə fəda edib. Bilmirəm qəribədir, yoxsa belə də olmalıdır, nədənsə bütün şəhidlərin taleyi bir-birinə bənzəyir, bütün şəhid valideynləri bir-birinə oxşayır...**



*"Yeganə təsəllimiz budur ki, oğlumuz vətəni uğrunda şəhid oldu, Davud özü demiş, bu yolda qələbə çaldı"*

## *Qənirə Hacıyeva: "Gülümsəyərək deyirdi ki, görəcəksiniz, bu qələbədə mənim də payım olacaq"*




1996-cı il fevralın 15-də Bakı şəhərində anadan olan Davud Taryel oğlu Qurbanov müharibə başlayanda əsgəri xidmətdə olub... Vətən müharibəsinin iki illiyi münasibətilə qazi jurnalistlərlə bağlı gerçəkləşdirdiyimiz layihənin bu sayını taleyinə qazilik deyil, şəhidlik yazılan Davud Qurbanova həsr etdik. Şəhid Davudun anası Hacıyeva Qənirə İmran qızı ilə həmsöhbət olduq. Qənirə ana oğlundan danışdıqca həm qəhərlənir, həm də qüssələnir, amma qürurunu da gizlətmir. "Davud 2002-ci ildə Binəqədi rayonu Biləcəri qəsəbəsində Rizvan Pirnəzərov adına 299 saylı tam orta məktəbin birinci sinfinə gedib. Davud Biləcəri qəsəbəsində böyüyüb boya-başa çatıb, ömrünü burada yaşayıb, biz də hazırda bu qəsəbədə yaşayırıq. 2013-cü ildə orta məktəb-litseyin 11-ci sinfini bitirib və elə həmin il də Azərbaycan Dövlət Neft Sənayesi Universitetinə qəbul olub. Davud orta məktəbdə oxuyanda həm əxlaqı, təlim-tərbiyəsi, həm də savadına görə həmişə şagid yoldaşlarından fərqlənib. Müəllimlərinin, şagird yoldaşlarının sevimlisi olub. Eyni zamanda da ictimai işlərdə aktiv olan bir şagird kimi məktəbdə tanınıb. Hələ məktəbdə oxuyarkən sabiq ombudsman tərəfindən təşkil olunmuş Azərbaycanda uşaq və gənclərin sülh şəbəkəsinin üzvü idi. Universitetə daxil olana qədər orada iştirak edib məzunu olub. Davudun sabiq ombudsman Elmira Süleymanova ilə şəkli də var, ombudsman ona sertifikat verir, həmin şəkil indi də durur..."

Ana deyir ki, Davud savadı ilə seçilib və mütəmadi olaraq bilik yarışlarında, olimpiadalarda iştirak edib, üstünlük qazanan uşaqlar sırasında olub. Qənirə ana bildirir ki, Davud tələbə vaxtı da tələbələr və müəllimlər arasında özünə böyük hörmət qazanıb. 2015-ci ildə Bakıda keçirilən İlk Avropa Oyunlarında Davudun könüllü kimi iştirak etdiyini xatırlayan ana deyir ki, oğlu bu fəaliyyətinə görə təşəkkürnamə də alıb. 2017-ci ildə Azərbaycan Dövlət Neft Sənayesi Universitetinin bakalavr pilləsini bitirən Davud həmin il də bu universitetinin magistratura pilləsinə daxil olub (ana göz yaşlarını saxlaya bilmir, səsi titrəyir). Qənirə anaya danışmaq çox çətindir, balasının yarımçıq ömür dəftərini vərəqləyərkən ürəyindən qara qanlar axır. Ana deyir ki, Davud 2018-ci ilin yanvarında Space teleradio şirkətində montajçı vəzifəsinə qəbul olunub. 2019-cu ilin aprel ayına kimi orada işlədikdən sonra mayın əvvəlində ATV kanalında "ATV Səhər"in montajçısı olub: "2019-cu ildə Davud magistraturanı bitirsə də, təəssüflər olsun ki, diplomunu götürə bilmədi. 2019-cu ilin oktyabrın 1-də iş fəaliyyətini dondurub həqiqi hərbi xidmətə getdi. Gedəndə də bizə dedi ki, əsgərliyə getmək mənim vətənə oğulluq borcumdur, mən mütləq hərbi xidmət keçməliyəm. Davud orta və ali məktəbdə, magistraturada oxuyarkən qazandığı hörməti iş yerlərində də qazanmışdı. O hörməti onun iş yerindən indi də özümüzə münasibətdə görürük. Davud 2019-cu il sentyabrın 13, 14, 15-də işğaldan ilk azad olunan torpağımız Cocuq Mərcanlıya ezam olunmuşdu, orda məktəb açılışından canlı yayım verirdilər. O çox böyük həvəslə Cocuq Mərcanlıya getmişdi. Dedi ki, gün gələcək, biz Şuşadan da belə bir veriliş hazırlayacağıq. Davudun arzusu idi ki, Şuşa işğaldan azad edildikdən sonra redaksiya heyəti ilə birgə orada ilk açılan məktəbdən veriliş hazırlanmasında iştirak etsin. O, ailənin dördüncü uşaq olub. Davudun özündən böyük iki qardaşı - Elnur və Emil Qurbanovlar hələ Davud dünyaya gəlməmişdən əvvəl avtoqəzada rəhmətə gediblər. İndi bir oğlum qalıb, adı Ümiddir. Davud ailənin sonbeşiyi olsa da çox ağıllı, dünyagörüşlü, dərrakəli, məntiqli bir uşaq idi. Onun gələcəyi görmə qabiliyyəti vardı. Ailənin kiçik üzvü də olsa, özünü ailəni idarə edə biləcək bir adam kimi aparırdı. Mən də, atası və qardaşı da həmişə Davuddan məsləhət alardıq. Məktəbli dostlarının da, tələbə və iş yoldaşlarının da məsləhət yeri mənim balam idi. Davud çox şən, həyatsevər, adama pozitiv enerji verən və hazırcavab oğlan idi. Abdulla Qurbani deyirdi ki, Davud, elə bil sənin gözlərindən od parıldayır, gözlərində bir həyat eşqi, həvəsi var. İş yoldaşları deyir ki, o danışıbgüləndə iş yoldaşları onun başına toplaşardı. Davud belə uşaq idi. Ümumilikdə götürəndə, onda hər hansı mənfi xarakter yox idi. Çox vətənpərvər uşaq idi. O hələ orta məktəbdə oxuyanda Qarabağ hadisələri ilə maraqlanardı, ərazilərimizin tarixini öyrənirdi, onlar barədə düşünürdü. Birinci kursda oxuyanda bir dəfə Xocalı soyqırımı haqqında bir videoçarx hazırlamışdı və internetlə əlaqə saxlayıb onu müsəlman ölkələrinə yayırdı ki, bizim xalqımızın başına Xocalıda, Qarabağda ermənilər belə faciələr gətirib, dünya birliyi və müsəlman ölkələri bizim səsimizə səs versin..."

Ana deyir ki, Davud həmişə torpaqlarımızın azad edilməsində iştirak etmək arzusunda olub və Allah da onun bu arzusunu çin edib: "Özü də gülümsəyərək deyirdi ki, görəcəksiniz, bu qələbədə mənim də payım olacaq (ağlayır). O müsəlman ölkələrinə Xocalı faciəsini internet vasitəsilə yayarkən deyirdi ki, biz uşaq vaxtı gizlənpaç oynayanda "sağım gizlənməli, solum gizlənməli, kim tapılsa o yumacaq, amma Xocalıda isə deyirdilər ki, sağım erməni, solum erməni, gizlənməyəni öldürəcəklər" deyirdi. Belə vətənpərvər oğul idi. Davudun 2020-ci ilin oktyabrın 1-də ordudan tərxis olunması haqda əmri verilsə də, lakin evə gəlmədi. 27 sentybarda başlanan Vətən müharibəsində Davud da öz əsgər yoldaşları kimi silaha sarılıb Vətəni uğrunda döyüşdü. Hərbi xidmətdə də özünə böyük hörmət qazanmışdı. Hərbi xidmətdə olarkən az bir müddətdə Davud əvvəlcə kiçik çavuş, sonra isə çavuş rütbəsi alıb, manqa başçısı vəzifəsində xidmət edib. Minamyot batalyonunun manqa komandiri vəzifəsində olub. Bayaq dediyim kimi, ordudan tərxis olunsa da, 27 sentyabrda müharibə başladığı üçün Davud da başqa silah yoldaşları ilə torpaqlarımızın azadlığı uğurunda döyüşüb. Oğlum 2020-ci ilin 3 oktyabrında Suqovuşanın işğaldan azad edilməsində qəhrəmancasına şəhid olub. Şəhid olmazdan əvvəl bizimlə əlaqə saxlayırdı. Demək olar ki, hər gün danışırdıq və hər dəfə də "məndən narahat olmayın, vəziyyətimiz yaxşıdır, arxayın olun ki, torpaqlarımızı azad edəcəyik. Bayrağımızı Şuşaya sancacağıq" deyirdi. Belə bir söz də dedi ki, erməninin bayrağını, papağını salmışam ayağımın altındadır. Son sözü o oldu ki, bizim burda vəziyyətimiz yaxşıdır, arxayın olun, siz hələ bizimlə fəxr edəcəksiniz. "Ata, ana, siz mənimlə fəxr edəcəksiniz" dedi. Çox təəssüf ki, "siz mənimlə fəxr edəcəksiniz" sözü oğlumun son sözü oldu. O sözü Davud bizə 2 oktyabrda demişdi, 3 oktyabrda isə biz Davudun şəhadətə yüksəldiyi xəbərini aldıq. Əlbəttə, Davud kimi bir oğulu itirmək bizim üçün çox ağır oldu. İndi də ağırdır. Bizim vətənimiz, xalqımız, el-obamız üçün də Davud kimi igidləri itirmək çətindir, ata-ana üçün isə daha ağırdır. Yeganə təsəllimiz isə budur ki, oğlumuz öz vətəni uğrunda şəhid oldu, Davud özü demiş, bu yolda qələbə çaldı. Təsəllimiz odur ki, bu qələbədə Davudun da payı var. Davud uşaq olanda deyirdi ki, bəlkə bu torpaqları elə mən azad edəcəyəm. Doğrudan da, Davud o sözü elə-belə demirmiş, o elə bilirmiş ki, torpaqlarımızın azad olunmasında, qələbənin çalınmasında onun da payı olacaq. Oldu da..."

**Davud əsgərlikdə olmayıb mülki həyatda da olsaydı, mütləq mənada könüllü olaraq müharibəyə gedəcəkdi. Davud hərbi xidmətə gedib qayıtmış olsaydı da bir əsgər kimi döyüşə qatılacaqdı. Davudun çox böyük arzuları vardı, o qısa, lakin mənalı bir həyat yaşadı. Xatirəsinin əbədiləşdirilməsinə gəlincə, həm Azərbaycanda uşaq və gənclərin sülh şəbəkəsinin məzunu, həm də namusluqeyrətli, vətənpərvər, ərazi bütövlüyümüz uğrunda şəhid olduğuna görə sabiq ombudsmanımız Elmira Süleymanovanın təşəbbüsü ilə yaşadığı binanın önündə barelyefi açıldı. Açılışda Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi rayon YAP üzvləri və bir çox təşkilatlardan nümayəndələr iştirak edib. Bir ana kimi yeganə istəyim odur ki, Biləcəri qəsəbəsində Davudun hər gün məktəbə, universitetə, işə gedib-gəldiyi küşəyə onun adı verilsin. Bunu çox arzu edərdim. Əlbəttə, əgər mümkün olarsa. Oxuduğu məktəbdə onun adına bir sinif otağı ayrılıb. Orda bir guşə düzəldilib, Davudun müəyyən əşyaları ora qoyulub. Ad və şəhid düşdüyü günlərdə oxuduğu məktəbdə xatirəsinə həsr olunmuş tədbir keçirilir".**

*İradə SARIYEVA*